2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İradə Hacıyevanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 28 oktyabr 2015-ci il tarixli 111 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 29 oktyabr 2015-ci il

2015-ci il oktyabrın 28-də 15 saylı Yasamal birinci seçki dairəsi üzrə qeydə alınmış namizədlər Əliyev Əli Nadir oğlu, Rüstəmov Ramil Litvin oğlu, Vəfa Fərhad qızı Rüstəm, Əsədov Garay Xəlil oğlu və Mehdiyev Nişat Əhməd oğlu 28 oktyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına müraciət edərək həmin seçki dairəsi üzrə qeydə alınmış namizəd Quliyev Ülvi Zahid oğlunun qanunsuz seçkiqabağı təşviqat aparması ilə əlaqədar verilmiş şikayət üzrə dairə seçki komissiyasının 26 oktyabr 2015-ci il tarixli 27/65 saylı qərarını mübahisələndirmiş, həmin qərarın və Ü.Z.Quliyevin namizəd kimi qeydiyyatının ləğv edilməsi üçün müvafiq təbirlərin görülməsini xahiş etmişlər.

Mən, ekspert qrupunun üzvü İradə Hacıyeva həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Ərizəçilər müraciəti onunla əsaslandırmışlar ki, 15 saylı Yasamal birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Ü.Z.Quliyevin həmin seçki dairəsinin 10 və 11 saylı seçki məntəqələri üzrə yayılan təşviqat materiallarında həmin materialların tirajı, çap tarixi, sifarişçinin adı və onları çap edən mətbəənin rekvizitləri göstərilməmiş, A.M.Şərifzadə küçəsi 203 V ünvanında yerləşən 138 nömrəli poçt şöbəsinin inzibati binasının ön şüşəsində namizədin təşviqat materialı yapışdırılmış və o, 19 oktyabr 2015-ci il tarixdə 4 saylı seçki məntəqəsində seçicilərlə görüş keçirmişdir.

Araşdırma prosesində müraciət etmiş deputatlığa namizədlərlə əlaqə saxlanılmış, əlavə sənədlər və materiallar təqdim etmək, araşdırmada, iclasda iştirak etmək hüquqlarının olması izah edilmiş, onların Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, həmin seçki dairəsi üzrə qeydə alınmış namizədlər Ə.Əliyevin və N.Mehdiyevin eyni xarakterli müraciətləri 23 və 25 oktyabr 2015-ci il tarixində dairə seçki komissiyasına daxil olmuş, komissiya həmin müraciətlərə müəyyən edilmiş qaydada və müddətdə baxmış, müraciətdə iddia olunan qanun pozuntuları araşdırma zamanı öz təsdiqini tapmadığından müraciət əssasız hesab

edilərək təmin edilməmişdir.

Təqdim edilmiş materialların araşdırılması zamanı müəyyən edilmişdir ki, 15 saylı Yasamal birinci seçki dairəsinin 10 və 11 saylı seçki məntəqələri üzrə Ü.Z.Quliyevin yayılmış təşviqat materiallarında bu materialları hazırlayan və hazırlanmasını sifariş edən təşkilatların adı, materialların tirajı və buraxılış tarixi barədə məlumatın olmaması barədə iddialar öz təsdiqini tapmamışdır.

Namizəd çap olunmuş seçkiqabağı təşviqat materialları haqqında tam məlumatları və onların nümunələrini, bu materialları sifariş edən və hazırlayan təşkilatların ünvanları barədə məlumatları əvvəlcədən dairə seçki komissiyasına təqdim etmişdir.

Dairə seçki komissiyasının sədrinin, 138 saylı poçt şöbəsinin rəisi İ.Kələntərovun və namizəd Ü.Z.Quliyevin izahatlarından görünür ki, həmin poçt şöbəsinin inzibati binasının ön şüşəsində Ü.Z.Quliyevin təşviqat materialının yapışdırlması barədə namizəd xəbər tutduqdan dərhal sonra dairə seçki komissiyasına müraciət etmiş, komissiya həmin təşviqat materialının oradan çıxarılması üçün müvafiq təbirlər həyata keçirmişdir.

Seçki Məcəlləsinin 87.3-cü və 87.4-ü maddələrinə görə seçkiqabağı çap və audiovizual təşviqat materiallarında bu materialları hazırlayan və hazırlanmasını sifariş edən təşkilatların adı, materialların tirajı və buraxılış tarixi barədə məlumat olmalıdır və çap olunan seçkiqabağı təşviqat materialları haqqında tam məlumatları və ya onların surətlərini qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku seçki komissiyasına təqdim etməlidir. Göstərilən materiallarla birlikdə müvafiq seçki komissiyasına bu materialları sifariş edən və hazırlayan təşkilatların ünvanları barədə məlumat da təqdim edilməlidir.

Araşdırma ilə müəyyən edilmişdir ki, 15 saylı Yasamal birinci seçki dairəsinin ərazisində mövcud olan 2 saylı Baza Tibb Kollecinin inzibati binasında həmin dairənin 4 saylı seçki məntəqəsi yerləşir. Həmin seçki mənqəqəsi məntəqə seçki komissiyasının sədri S.S.Zeynalova, komissiya üzvləri G.Ə.Cəfərova, A.B.Vəkilova, C.A.Muradova, M.N.Kərimova və N.Q.Ələsgərovanın izahatlarından və iş üzrə təqdim edilmiş digər materiallardan görünür ki, namizəd Ü.Z.Quliyev həmin seçki məntəqəsində seçicilərlə görüş keçirməmiş və sosial şəbəkədə yayılmış foto və video görüntülər isə namizədin digər yerdə seçicilərlə keçirdiyi görüşə aiddir.

Seçki Məcəlləsinin 86.3-cü və 86.4-cü maddələrinə görə seçki komissiyalarının sifarişi ilə dövlət və ya bələdiyyə mülkiyyətində olan, seçkiqabağı tədbirlərin keçirilməsi üçün yararlı yer (bina, otaq) qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, səlahiyyətli nümayəndələrinin, onların vəkil edilmiş şəxslərinin seçki komissiyası ilə razılaşdırdıqları vaxtda seçicilərlə görüşlər üçün istifadəyə mülkiyyətçilər tərəfindən pulsuz verilir. Göstərilən yer (otaq, bina) qeydə alınmış namizədlərdən birinə, siyasi partiyaya, siyasi partiyaların blokuna seçkiqabağı təşviqatın aparılması üçün verilmişsə, mülkiyyətçi qeydə alınmış digər namizədə, siyasi partiyaya, siyasi partiyaların blokuna eyni istifadə şərtləri ilə həmin yeri (otağı, binanı) verməkdən imtina edə bilməz. Seçki komissiyaları qeydə alınmış namizədlərə, siyasi partiyalara, siyasi partiyaların bloklarına seçkiqabağı kütləvi tədbirlər keçirmək üçün bərabər şərait yaradırlar. Qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları seçicilərlə görüşlər, yığıncaqlar, digər seçkiqabağı kütləvi tədbirlər keçirmək üçün, mülkiyyət formasından asılı olmayaraq, vətəndaşlara və təşkilatlara məxsus bina və otaqları müqavilə əsasında icarəyə götürmək hüququna malikdirlər.

Müəyyən edilmişdir ki, dairə seçki komissiyası mübahisələndirilən qərarı qəbul edərkən düzgün hüquqi nəticəyə gəlmiş, həmin qərarın və Ü.Z.Quliyevin namizəd kimi qeydiyyatının ləğv edilməsi ilə bağlı müvafiq təbirlərin görülməsi üçün hüquqi əsaslar yaranmamışdır.

Göstərilənlərə əsasən şikayət əsassız olduğundan təmin edilməməli, 15 saylı

Yasamal birinci seçki dairəsi dairə seçki komissiyasının 26 oktyabr 2015-ci il tarixli 27/65 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 15 saylı Yasamal birinci seçki dairəsi üzrə qeydə alınmış namizədlər Əliyev Əli Nadir oğlu və digərlərinin 28 oktyabr 2015-ci il tarixli 111 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 26 oktyabr 2015-ci il tarixli 27/65 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Iradə Hacıyeva